

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanımı mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti**

Sayı: 34 (21.186)

19 fevral 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Ötən il tikinti-quruculuq işləri daha da genişləndirilib

Fevralın 18-də Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsində 2014-cü ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib. İclası komitənin sədri Cəfər Muxtarov açaraq 2014-cü ildə görülən işlər və qarşıda duran vəzifələrlə bağlı məruzə edib. Qeyd olunub ki, sosial-iqtisadi sahədə davamlı inkişaf tempinin təmin edilməsi 2014-cü ili uğurlu nəticələrlə başa vurmağı şərtləndirib, ötən dövr ərzində muxtar respublikada 208 milyon 6 min manat həcmində tikinti işləri yerinə yetirilib. Cəfər Muxtarov görülən işlərlə yanaşı, işdə buraxılan nöqsanlardan da danışıb.

Məruzə ətrafında Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Babək Rayon İdarəsinin rəisi Rəvayət İmanovun, Naxçıvan Şəhər İdarəsinin baş mühəndisi İbrahim Hüseynovun çıxışları olub.



Kollegiya iclasında çıxış edən Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Asəf Məmmədov bildirib ki, ötən il muxtar respublikada 296 müxtəliftəyinatlı obyekt tikilib, yenidən qurulub və ya əsaslı təmir olunub, 153 müxtəliftəyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilib.

Həyata keçirilən irimiqyaslı infrastruktur quruculuğu tədbirləri muxtar respublikanın bütün inzibati ərazisini, o cümlədən ucqar yaşayış məntəqələrini də əhatə edib. Ötən il 8 kənd mərkəzi istifadəyə verilib, 8 kənd mərkəzinin inşası davam etdirilib. Bundan əlavə, həmin dövrdə muxtar respublikada 4 yaşayış binasının tikintisi, 6 yaşayış binasının yenidən qurulması, 2 yaşayış binasının əsaslı təmiri, 6 yaşayış binasının təmiri başa çatdırılıb, 4 yaşayış binasının tikintisi, 4 yaşayış binasının yenidən qurulması, 1 yaşayış binasının əsaslı təmiri, 1 yaşayış binasının isə təmiri davam etdirilir.

Əhalinin keyfiyyətli içməli su ilə təmin edilməsi, kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində həyata keçirilən tədbirlərdən də danışan Baş nazirin birinci müavini deyib ki, Naxçıvan şəhərində 217 kilometr məsafədə kanalizasiya və 224,4 kilometr məsafədə içməli su xətləri çəkilib. Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayonlarının mərkəzləri və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya şəbəkələrinin tikintisi layihələri üzrə, ümumilikdə, 542 kilometr məsafədə içməli su və 331 kilometr məsafədə kanalizasiya xətləri çəkilib.

Asəf Məmmədov onu da qeyd edib ki, ötən il əldə edilmiş müsbət nəticələrə baxmayaraq, muxtar respublikada fəaliyyət göstərən tikinti təşkilatlarının işində nöqsan və çatışmazlıqlar da olub. Muxtar respublikada aparılan quruculuq işləri zamanı keyfiyyət amilinin əsas şərt kimi qeyd olunmasına və tapşırılmasına baxmayaraq, bəzi tikinti təşkilatları keyfiyyət amilini unudaraq kəmiyyət ardınca qaçırlar. Keçirilən operativ yığıncaqlarda, obyektlərdə tikintinin gedişinə baxış keçirərkən, eləcə də tikinti təşkilatlarının iştirakı ilə keçirilən müşavirələrdə deyilməsinə baxmayaraq, hələ də bəzi nöqsanlar davam edir. Komitənin texniki nəzarətçiləri obyektdə iş həcmlərinin ölçülməsi ilə öz işlərini bitmiş hesab etməməli, normativə uyğun iş görülməsi, keyfiyyətsiz işlərə yol verilməməsi üçün diqqəti daha da artırmalı, nəzarəti gücləndirməlidirlər.

Bildirilib ki, 9 fevral 2015-ci il tarixdə Naxçıvan Muxtar Respublikasında 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilən müşavirədə Ali Məclisin Sədri dövlət orqanlarına, o cümlədən Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə konkret tapşırıqlar verib. Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında, eləcə də 9 fevral 2015-ci il tarixdə keçirilən müşavirədə Ali Məclis Sədrinin tikinti sektoru, xüsusilə də komitə qarşısına qoyduğu vəzifə və tapşırıqların 2015-ci ildə yerinə yetirilməsinə məsuliyyətlə yanaşılmalı, tikinti təşkilatları ötən il yol verilən nöqsan və çatışmazlıqların təkrarlanmaması üçün var qüvvələri ilə çalışmalıdırlar.

## Ədliyyə Nazirliyində kollegiya iclası keçirilib



*Dünən Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində ötən ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclasında Ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev məruzə ilə çıxış edib.*

Nazir ötən il muxtar respublikada Ədliyyə Nazirliyi və ona tabeli qurumların fəaliyyətinin təkmilləşdirilməsi, “Hüquqi aktların Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktlarının Dövlət Reyestrinə daxil edilməsi haqqında Əsasnamə”dən irəli gələn tələblər, məhkəmə qərarlarının icra səmərəliliyinin artırılması, əhaliyə göstərilən hüquqi xidmətin keyfiyyətinin yüksəldilməsi istiqamətində görülən işlər və əldə edilən nəticələr barədə danışıb.

Bundan başqa, Suliddin Əliyev notariat hərəkətlərinin sayı, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı barədə statistik göstəriciləri iştirakçıların diqqətinə çatdırıb, sahibkarlıq sahəsindəki yoxlamaların məlumat reyestrinin aparılması istiqamətində əldə edilən nəticələrdən bəhs edib. Qeyd olunub ki, ötən il ədalətli məhkəmə hüququnun ayrılmaz tərkib hissəsi olan məhkəmə qərarlarının icrası işinin səmərəliliyinin yüksəldilməsi üzrə əsaslı tədbirlər görülüb. Hesabat dövrü icra xidmətinin bölmə və qruplarının icraatına 2524 icra işi daxil olub, bunlardan 727 işin icrası başa çatdırılıb, 1506 iş icraya yönəldilib, 65 iş geri qaytarılıb, 174 iş ərazi aidiyyəti üzrə göndərilib, 17 işin icraatı dayandırılıb, 35 iş üzrə isə axtarış qərarı verilib.

“Hüquqi aktların Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktlarının Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə”yə uyğun olaraq, reyestrə hesabat dövrü 137 hüquqi akt daxil edilib. Daxil edilən hüquqi aktların 71-i normativ-hüquqi akt, 66-sı isə qeyri-normativ-hüquqi aktlardır. Əhaliyə göstərilən hüquqi xidmətin yüksəldilməsi və keyfiyyətinin artırılması diqqət mərkəzində saxlanılıb. Qeydiyyat və notariat şöbəsi tərəfindən 2014-cü ildə 2 qeyri-kommersiya hüquqi şəxs qeydiyyata alınıb, 2 qeyri-kommersiya hüquqi şəxs reyestrdən çıxarılıb, 25 reyestrdən çıxarış verilib. Vətəndaşlıq vəziyyəti aktları ilə bağlı təkrar şəhadətnamələrin verilməsi, sənədlərin leqallaşdırılması və qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı ilə bağlı 7840 manat rüsum dövlət büdcəsinə ödənilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov çıxış edib.

İclasa Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri Suliddin Əliyev yekun vurub.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin kollegiya iclası keçirilmişdir.***

## Muxtar respublika iqtisadiyyatının bütün sahələr üzrə dinamik inkişafına nail olunub

İclasda İqtisadiyyat və Sənaye naziri Famil Seyidov “2014-cü ilin yekunları və qarşıda duran vəzifələr” mövzusunda məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, muxtar respublika iqtisadiyyatının bütün sahələr üzrə dinamik inkişafı 2014-cü ildə də uğurla təmin olunmuş, makroiqtisadi sabitlik qorunub saxlanılmış, özəl bölmənin inkişafına dövlət dəstəyi davam etdirilmiş, yeni iş yerləri açılmış, əhalinin maddi rifah halı yüksəlmişdir. Belə ki, Ümumi Daxili Məhsul istehsalının həcmi 2014-cü ildə 2 milyard 391 milyon manat olmaqla, 2013-cü illə müqayisədə 1,3 faiz artmışdır. Görülmüş tədbirlər sayəsində 352 növdə məhsul istehsalına və 336 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsinə nail olunmuşdur. Ölkəmizdə elan olunmuş “Sənaye ili”ndə qarşıya qoyulmuş vəzifələrin icrası muxtar respublikada sənayenin inkişafına təkan vermiş, yeni sənaye müəssisələri yaradılmış, sənaye məhsulu istehsalı 2013-cü illə müqayisədə 2,5 faiz artmışdır. Muxtar respublikanın sənaye potensialının gücləndirilməsi məqsədilə dünya təcrübəsinin öyrənilməsinə diqqət artırılmışdır.



Sahibkarlıq fəaliyyətinin dəstəklənməsi məqsədilə verilmiş tapşırıqların icrası istiqamətində görülən işlərdən də danışan nazir demişdir ki, 2013-2014-cü illərdə 76 layihənin maliyyələşdirilməsinə 1 milyon 748 min manat güzəştli kreditlər verilmiş, dövlət maliyyə dəstəyi ilə muxtar respublikanın kəndlərində 400-dən çox kiçikhəcmli istehsal və xidmət sahələri yaradılmışdır. Ümumilikdə, 2000-2014-cü illər ərzində sahibkarlığa Kömək Fondu tərəfindən 1175 layihənin maliyyələşdirilməsinə 108 milyon manat, təkcə 2014-cü ildə isə 18 layihənin maliyyələşdirilməsinə 6 milyon 30 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Həyata keçirilmiş tədbirlər nəticəsində 31 sahibkarlıq subyekti tərəfindən vaxtı keçmiş kredit vəsaitlərinin tam geri qaytarılması təmin edilmişdir. Ötən il muxtar respublikada kiçik və orta sahibkarların fəaliyyətini stimullaşdırmaq, istehsal olunan məhsulların ixracına nail olmaq və xarici bazarlarda təşviqi məqsədilə “Naxçıvan Məhsulları” MMC yaradılmışdır.

Yol verilən nöqsanlardan da bəhs edən İqtisadiyyat və Sənaye naziri bildirmişdir ki, bununla bağlı nazirliyin bütün strukturları öz fəaliyyətində dönüş yaratmalı və qısa müddətdə ərzində nöqsanlar aradan qaldırılmalıdır.

Sonra çıxışlar olmuşdur.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iqtisadi məsələlər üzrə müşaviri Müslüm Cabbarzadə çıxış etmişdir.

Sonda 2014-cü ilin yekunlarına əsasən, “Biznesdə uğur” mükafatının nominasiyaları üzrə mükafatların təqdimetmə mərasimi keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində 2014-cü ilin yekunlarına və cari ildə qarşıya qoyulmuş vəzifələrin icrasına həsr olunmuş yığıncaq keçirilib.***

## Hərbi xidmətə çağırış kampaniyaları mütəşəkkil aparılıb

Tədbiri xidmətin rəisi, general-mayor Səxavət Salmanov açaraq məruzə ilə çıxış edib. Bildirilib ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ötən il qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlib. Belə ki, 2014-cü ildə çağırışçıların həqiqi hərbi xidmətə çağırılması haqqında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamları əsasında çağırış kampaniyaları keçirilib. Çağırış kampaniyalarının keçirilməsi ilə bağlı nəzərdə tutulmuş plan və tapşırıqlar tam həcmdə yerinə yetirilib.



Qeyd olunub ki, 2014-cü ildə çağırışaqədər gənclərin ilkin qeydiyyata alınması tədbirləri də qarşıda duran əsas vəzifələrdən olub. Çağırış üzrə dövlət tapşırıqlarının uğurlu icrası çağırışaqədər gənclərin ilkin qeydiyyata alınmasından, eləcə də müvafiq dövr ərzində başa çatdırılmasından çox asılıdır. Bu sahədə iş ötən il də uğurla aparılıb. Bundan əlavə, çağırışaqədər gənclərin peşəyönümlü məktəblərə göndərilməsi də diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Ötən il 359 nəfər gənc sürücülük məktəbinə cəlb olunub, tam kursu bitirdikdən sonra sürücülük vəsiqələri ilə təmin edilərək hərbi hissələrə göndəriliblər.

Naxçıvan Muxtar Respublikasında məktəblilər arasında hərbi-idman oyunlarının keçirilməsinin diqqət mərkəzində saxlanıldığını deyən xidmət rəisi bildirib ki, “Cəsurlar”, “Şahin” hərbi-idman oyunları Naxçıvan Muxtar Respublikasının Təhsil, Gənclər və İdman nazirliklərinin birgə iş planı əsasında təşkil edilib. Bununla yanaşı, 2014-cü ildə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən hərbi hissələrin, eləcə də qanunla müəyyən edilmiş digər silahlı birləşmələrin müddətdən artıq hərbi qulluqçular, zabitlərlə komplektləşdirilməsi işi davam etdirilib. Ötən il ərzində ehtiyatdan 9 nəfər zabit, 60 nəfər gizir, 68 nəfər qadın, 1155 nəfər müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun sənədləri hazırlanaraq hərbi hissələrə göndərilib.

Səxavət Salmanov işdə buraxılmış nöqsanlara da toxunub, onların qısa müddətdə aradan qaldırılmasının vacibliyini bildirib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin idarə rəisi, polkovnik-leytenant Ziyarəddin Baxşəliyevin, xidmətin Naxçıvan Şəhər İdarəsinin rəisi, polkovnik-leytenant Elxan Əliyevin, Şərur Rayon İdarəsinin rəisi, polkovnik-leytenant Nurlan Cəfərovun, Babək Rayon İdarəsinin rəisi, polkovnik-leytenant Amiləddin Abdullayevin və Ordubad Rayon Şöbəsinin rəisi Vüqar Rəhimlinin çıxışları olub.

**Xəbərlər şöbəsi**

# Ötən ilin yekunları və qarşıda duran vəzifələr müzakirə olunub



*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində keçirilən kollegiya iclasını nazir Elşad Əliyev açaraq məruzə ilə çıxış edib.*

Qeyd olunub ki, aparılan meliorasiya, irriqasiya tədbirləri, lizinq xidməti, yanacaq-sürtgü yağlarına görə torpaq mülkiyyətçilərinə yardımların ödənilməsi, istifadə olunan gübrələrin 70 faizinin pulsuz verilməsi, toxumçuluq və tingçiliklə məşğul olan təsərrüfatlara subsidiyaların ödənilməsi, lizinq yolu ilə satılan kənd təsərrüfatı texnikalarının dəyərinə 40 faiz güzəştlərin edilməsi, taxıl qəbul edən və soyuducu anbarların qurulması, meyvə-tərəvəz emalı müəssisələrinin işə salınması, yeni istixana komplekslərinin fəaliyyətə başlaması kənd təsərrüfatının dinamik inkişafına stimul yaradıb.

“2014-cü ilin yaz və payız əkinləri üçün 5165 nəfər sahibkara 1 milyon 463 min manat dəyərində 3867 ton yardım olaraq azot gübrəsi verilib”, – deyən Elşad Əliyev bildirib ki, ümumilikdə, 2014-cü ildə muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalçılarına 4 milyon 920 min manat yardım və subsidiyalar ödənilib.

Hesabat ilində kənd təsərrüfatının inkişafı üçün banklar və bank olmayan kredit təşkilatları tərəfindən 17 milyon 956 min manat kredit verilib. Bunun da 4 milyon 542 min manatı və ya 25,2 faizi bitkiçilik sahəsinə, 12 milyon 557 min manatı və ya 70 faizi heyvandarlıq sahəsinə, 534 min manatı və ya 3 faizi arıçılıq sahəsinə, 323 min manatı və ya 1,8 faizi quşçuluq sahəsinə ayrılmış kreditlərdir.

Görülmüş tədbirlər nəticəsində ötən il 35 min 750 hektar taxıl sahəsindən 103 min 70 ton, 2113 hektar paxlalılar sahəsindən 6554 ton, 1046 hektar dən üçün qarğıdalı sahəsindən 4225 ton, 264 hektar günəbaxan sahəsindən 663 ton, 2962 hektar kartof sahəsindən 41406 ton, 6125 hektar tərəvəz sahəsindən 66731 ton, 2744 hektar bostan sahəsindən 34339 ton, barverən meyvə bağlarından 36196 ton, barverən üzüm sahələrindən 14395 ton məhsul tədarük edilib.

Bütövlükdə, 2014-cü ildə kənd təsərrüfatının ümumi məhsulunun dəyəri 355 milyon 157 min manat təşkil edib. Bu da 2013-cü illə müqayisədə 6,1 faiz çoxdur.

Nazir bildirib ki, 2015-ci ilin “Kənd təsərrüfatı ili” elan edilməsi bu sahəyə dövlətin xüsusi əhəmiyyət verdiyini bir daha təsdiq edir və Kənd Təsərrüfatı Nazirliyi qarşısında mühüm vəzifələr qoyur.

Elşad Əliyev işdə buraxılan nöqsanlardan bəhs edərək 2015-ci ildə bu nöqsanların aradan qaldırılmasının vacibliyini bildirib.

Məruzə ətrafında müzakirələrdə akademik Həsən Əliyev adına “Araz” Elm-İstehsalat Birliyinin direktoru Bəhruz Bayramovun, nazirliyin Toxumçuluq və bitkilərin mühafizə idarəsinin müdiri Niyamət İsayevin, Heyvandarlıq, damazlıq işi və otlaqlar şöbəsinin müdiri Əyyub Abdullayevin çıxışları olub.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri Rəfael Babayev qazanılan uğurlardan, işdə buraxılan nöqsanlardan və 2015-ci ildə qarşıda duran vəzifələrdən danışıb.

* * *



*Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində keçirilən kollegiya iclasını komitə sədri Ramilə Seyidova açaraq 2014-cü ilin yekunları və cari ildə qarşıda duran vəzifələrlə bağlı məruzə edib.*

Bildirilib ki, ötən il ailə institutunun qorunub saxlanılması, ailədaxili münasibətlərin möhkəmləndirilməsi, cəmiyyətdə qadınların rolunun artırılması, onların sağlamlıqlarının qorunması, uşaqların layiqli vətəndaş kimi böyüməsi məqsədilə konfranslar, seminarlar, müsabiqələr, tədbirlər keçirilib, beynəlxalq günlər qeyd olunub, ailə, qadın və uşaqlarla bağlı məlumat bazası yenilənib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”nın müvafiq bəndlərinin icrası ilə əlaqədar 2014-cü il ərzində 492 nəfəri məktəbəqədəryaşlı olmaqla, 1438 nəfər sağlamlıq imkanları məhdud uşaqların valideynləri ilə əlaqə yaradılıb və onlarla geniş maarifləndirici söhbətlər aparılıb. Bu uşaqlardan 19 nəfər uşaq bağçalarına, 8 nəfər Naxçıvan şəhərindəki Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə, 75 nəfər ümumtəhsil məktəblərinə, bunlardan 73-ü birinci sinfə, 14 nəfər idman və şahmat məktəblərinə, 12 nəfər uşaq musiqi məktəblərinə, 8 nəfər məktəbdənkənar müəssisələrin dərnəklərinə, 8 nəfər Naxçıvan Uşaq Bərpa Mərkəzinə və 12 nəfər Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinə olmaqla, cəmi 156 nəfər məktəbəqədər, məktəb və məktəbdənkənar təlim-tərbiyə, müalicə və reabilitasiya müəssisələrinə yönləndirilib.

Vurğulanıb ki, muxtar respublikada fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkilinə məsul işçilərin bu sahədə peşəkarlıq səviyyəsinin artırılması məqsədilə müəllim, metodist və tərbiyəçilərin iştirakı ilə 4 dəfə kurs təşkil olunub, sağlamlıq imkanları məhdud uşaqlar üçün qanvermə aksiyası keçirilib.

Komitənin nəzarətdə saxladığı məsələlərdən biri də dünyanın hazırkı inkişaf mərhələsində xalqımızın ailə modelinə və ailələrimizin bütövlüyünə xələl gətirəcək amillərin qarşısını almaq, baş verə biləcək neqativ təmayüllərin aradan qaldırılması, yeni nəslin düzgün seçim etmək məqsədilə lazımi yaş qrupları arasında maarifləndirici tədbirlər keçirməkdir. Bu kontekstdə ailə dəyərlərinin təbliğ olunması və internetdən qeyri-düzgün istifadənin ailələrə mənfi təsiri ilə bağlı bir sıra tədbirlər keçirilib, gənclər arasında müzakirələr təşkil olunub.

Komitə sədri qeyd edib ki, qadınların əmək bazarında rəqabət qabiliyyətlərinin artırılması, qadınlar arasında özünüməşğulluğun inkişaf etdirilməsi, sosial vəziyyətlərinin yaxşılaşdırılması məqsədilə onların əl işlərinin satışı təşkil olunub.

Sonra məruzə ətrafında çıxışlar olub.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edib.

İclasa komitə sədri Ramilə Seyidova yekun vurub.

* * *

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsində keçirilən kollegiya iclasını komitənin sədri Əsgər Əsgərov açıb. Qeyd olunub ki, 2014-cü ildə muxtar respublikanın rayonlarında meliorasiya və irriqasiya işlərinin miqyası genişlənib, 79,7 kilometr kollektor, 83,8 kilometr beton və torpaq kanallar, 571,4 kilometr təsərrüfat və ara arxları lildən təmizlənərək işlək vəziyyətə salınıb, 1,4 kilometr kanal beton plitələrlə üzlənib, 40,6 kilometr içməli su xətti, 83,5 kilometr yeni suvarma boru xətti çəkilib, 14 kilometr suvarma boru xətti təmir olunub.

Naxçıvan şəhərində həm içməli, həm də suvarma üçün istifadə olunan 19 ədəd subartezian nasosunda tələb olunan təmir işləri aparılıb.

Naxçıvan şəhərində Kalba Musa kəhrizinin əsaslı təmiri başa çatdırılaraq istifadəyə verilib, Xan diki kəhrizində əsaslı təmir işləri davam etdirilir.

Naxçıvan şəhərində “Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı” layihəsi çərçivəsində 15,24 kilometr şəhərdaxili kanalizasiya şəbəkəsi, 6 kilometr şəhərdaxili su şəbəkəsi çəkilib və 1440 ədəd ev birləşməsi aparılaraq sayğac quraşdırılıb. Çirkab sutəmizləyici qurğunun tikintisi həyata keçirilir.

Əsgər Əsgərov 2014-cü ildə ayrı-ayrı rayonlarda Suvarma Sistemləri idarələri tərəfindən aparılmış meliorasiya və irriqasiya işlərini də ətraflı təhlil edib.



Bildirilib ki, meliorotorların əsas vəzifələrindən biri kənd əməkçiləri üçün suvarma suyuna olan tələbatın təmin edilməsidir. Bunun üçün, hər şeydən əvvəl, mövcud sututarlara lazımi qədər suvarma suyu toplanmalıdır. Ötən ildə də bu mühüm əhəmiyyətli sahə diqqət mərkəzində saxlanılıb, mövcud sututarlara 183 mln kubmetr su yığılıb. Su istifadəçilərinə 179,56 mln kubmetr suvarma suyu verilib, bunun müqabilində isə təkrar suvarma da nəzərə alınmaqla 146772 hektar əkin sahəsi suvarılıb, suyun pullu satışından 301482 manat su pulu toplanılıb.

Muxtar respublikada ikinci suvarma mənbəyi olan nasos stansiyalarının və subartezian quyularının fasiləsiz işləməsi təmin olunub, 2014-cü il ərzində 86 ədəd nasos stansiyasında, 310 ədəd subartezian quyusunda təmir işləri aparılıb.

Vurğulanıb ki, irriqasiya-meliorasiya işlərinin yüksək səviyyədə aparılması üçün müasir maşın-mexanizmlərlə təminat ötən ildə də diqqət mərkəzində saxlanılıb, melioratorlar 10 ədəd “CAT” markalı ekskavator, 2 ədəd “XTZ-150” markalı traktor, 1 ədəd “NAZ-Lifan” markalı minik maşını ilə təmin edilib.

Naxçıvan Muxtar Respublikasında suvarma və içməli suya olan tələbatla əlaqədar olaraq, 2015-ci ildə 11 subartezian quyusunun bərpa olunması, 7 ədəd subartezian quyusunun qazılması, təmirə ehtiyacı olan kaptajlarda təmir-bərpa işləri aparılmaqla yeni kaptajların tikilməsi nəzərdə tutulur. Sututarlara suvarma suyunun yığılmasını daim nəzərdə saxlayaraq sututarların su ilə doldurulması, Şahbuz və Culfa rayonlarında içməli su və kanalizasiya şəbəkəsinin tikintisinin başa çatdırılması nəzərdə tutulur.

Sonra məruzə ətrafında Babək, Şərur, Culfa Rayon Suvarma Sistemləri idarələrinin rəisləri Yəhya Allahverdiyevin, Məhəmməd Cəlilovun və Məhəmməd Quliyevin çıxışları olub.

*Babək rayonunda ötən ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan müşavirə ilə əlaqədar keçirilən iclası giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev açaraq məruzə ilə çıxış edib.*



Bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin “Naxçıvan Muxtar Respublikasının Babək rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında” 5 mart 2013-cü il tarixli Sərəncamına əsasən inşa olunan, 13 yaşayış məntəqəsini əhatə edən Hacıvar-Vayxır-Sirab avtomobil yolunun tikintisi ötən il başa çatdırılıb. Azərbaycan Respublikası Prezidentinin “Naxçıvan Muxtar Respublikasının Babək rayonunda Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında” 27 avqust 2014-cü il tarixli Sərəncamına əsasən, 7 yaşayış məntəqəsini birləşdirən yolun yenidən qurulması işlərinə başlanılıb. 14,5 kilometr uzunluğunda Yarımca-Qahab-Nəcəfəlidizə-Naxışnərgiz avtomobil yolunun tikintisi başa çatdırılıb.

Ötən ilin Babək rayonunda genişmiqyaslı tikinti-quruculuq tədbirləri ilə yadda qaldığını tədbir iştirakçılarının diqqətinə çatdıran Elçin Hüseynəliyev Babək qəsəbəsi, Cəhri, Qahab, Güznüt kəndlərində və digər ünvanlarda yeni sosial obyektlərin istifadəyə verilməsini əlamətdar hadisə kimi dəyərləndirib.

Vurğulanıb ki, Babək rayonunda aqrar sahənin inkişafına ötən il də xüsusi diqqət yetirilib. 2014-cü ildə 10364,8 hektar sahədə taxıl biçini keçirilib, 31722 ton məhsul əldə edilib. “Naxçıvan Aqrolizinq” ASC-nin xətti ilə güzəştli şərtlərlə dövlət tərəfindən sahibkarlara lizinq yolu ilə 46 ədəd müxtəlif adda texnika satılıb. Hesabat dövründə taxıl əkininə görə sahibkarlara 919 min 384 manat pul vəsaiti, 1144,0 ton azot, 4,6 ton fosfor gübrəsi olmaqla, cəmi 1148,6 ton gübrə verilib. Bunun nəticəsidir ki, sahələrdə bol məhsul yetişdirilib; 351 hektar sahədən 5877,2 ton kartof, 1932 hektar sahədən 16287 ton tərəvəz məhsulları, 1505 hektar sahədən 20841,3 ton bostan məhsulları, meyvə bağlarından 4891 ton meyvə, üzüm bağlarından 5332 ton məhsul yığılıb. Rayonda heyvandarlığın inkişafına da xüsusi diqqət yetirilir. 2014-cü ildə əhalinin fərdi təsərrüfatlarında olan mal-qaranın baş sayında artım müşahidə olunub: 1 yanvar 2015-ci il tarixə rayonda iribuynuzlu sayı 14064 baş, xırdabuynuzlu sayı isə 129741 baş təşkil edib.

Təhsil, səhiyyə, mədəniyyət, idman, məşğulluq, sığorta, energetika, rabitə, mavi yanacaq təminatı sahələrində ötən ilin göstəriciləri haqda da danışan icra başçısı 2014-cü ildə sahibkarlığa xüsusi diqqət yetirildiyini deyərək qeyd edib ki, “Kənd təsərrüfatı ili”ndə qarşıya qoyulmuş vəzifələrin layiqincə yerinə yetirilməsi üçün rayonun bütün idarə, müəssisə, təşkilatları, inzibati ərazi dairəsi üzrə nümayəndəliklər fəaliyyətlərində daha ciddi dönüş yaratmalıdırlar.

Ötən il əldə olunan uğurlarla yanaşı, bəzi nöqsanlardan da bəhs edən Elçin Hüseynəliyev 2015-ci ildə bu nöqsanların aradan qaldırılması istiqamətində görüləcək işlərdən də danışıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

*Naxçıvan Tibb Kollecində də 2014-cü ilin yekunlarına və 2015-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş tədbir keçirilib.*



Tədbiri giriş sözü ilə kollecin direktoru İlhamə Mustafayeva açaraq ötən dövr ərzində kollecdə tədrisin səviyyəsinin yüksəldilməsi, ixtisaslı tibbi kadrların hazırlanması istiqamətində görülən işlərdən danışıb.

Qeyd olunub ki, 2013-2014-cü tədris ilinin ikinci yarısında tələbələrin ümumi sayı 456 nəfər olub, onlardan 146 nəfəri dövlət hesabına, 310 nəfəri isə ödənişli əsaslarla təhsil alıb. 2014-cü ilin sonunda kollecdə 38 qrup, 5 ixtisas üzrə tələbələrin ümumi sayı 731 nəfərə çatıb ki, onlardan 514 nəfər ödənişli əsaslarla, 217 nəfər isə dövlət hesabına təhsil alır.

Ötən il kollecin iş planına əsasən, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin göndərişləri əsasında 21 nəfər feldşer-laborant və laborant, 17 nəfər tibbi qeydiyyatçılar təkmilləşdirmə kurslarında iştirak ediblər.

Dərslərin keyfiyyətini yüksəltmək, savadlı kadrlar yetişdirmək məqsədilə dərslər əyani vəsaitlərlə tam təchiz edilmiş laboratoriyalarda, kabinələrdə, elektron lövhəli siniflərdə və kompüter otağında keçilir. Kollecdə 9 kabinə, 2 laboratoriya, 6 elektron lövhəli sinif, 2 kompüter sinfi fəaliyyət göstərir.

Ötən il kollecdə keçirilən mədəni-kütləvi və elmi-praktik konfranslardan danışan İlhamə Mustafayeva qarşıda duran vəzifələrdən də bəhs edib.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

*1828-ci il Türkmənçay müqaviləsinin şərtlərinə uyğun olaraq, Azərbaycana köçürülən və XIX yüzillik boyu davam edən köçürmə prosesi nəticəsində sayları süni surətdə artırılan ermənilər tarixi Azərbaycan torpaqlarında yerləşdirildikdən və möhkəmləndirildikdən, xüsusilə yüzilliyin sonlarında özlərinin bir sıra təşkilatlarını (Qnçaq, 1887-ci il, Cenevrə; Daşnaksutyun, 1895-ci il, Tiflis; erməni vətənpərvər ittifaqı, 1895-ci il, Nyu-York) yaratdıqdan sonra ölkəmizə qarşı ərazi iddialarına başlamışlar. Ermənilərin ərazi iddialarında Azərbaycanın əzəli və əbədi torpaqları olan Naxçıvan, Şərur-Dərələyəz, Zəngəzur və Dağlıq Qarabağ əraziləri əsas yer tuturdu. Bu iddiaları, xüsusilə xəyali "böyük Ermənistan" xülyasını gerçəkləşdirmək üçün ermənilər XX yüzilliyin əvvəllərində fəaliyyətlərini daha da gücləndirmişlər.*

# XX yüzilliyin 20-ci illərində Naxçıvanın itirilmiş torpaqları

Havadarlarının, xüsusilə iri dövlətlərin himayəsi ilə yaranmış hər bir əlverişli məqamdan məharətlə istifadə edən ermənilər I Dünya müharibəsində məğlubiyyətə uğrayan Rusiya imperiyasının dağılmasından sonra 28 may 1918-ci ildə "Ararat Respublikası"nı yaratmaqla müstəqilliklərini elan etsələr də, heç bir əraziləri və paytaxtları yox idi. Azərbaycana qarşı ərazi iddialarının bitəcəyini güman edərək 29 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ətraf ərazilərlə birlikdə verdiyi İrəvan şəhəri paytaxt olmaqla bağışlanan ərazilər hesabına 9,5 min kvadratkilometr ərazidə ermənilər özlərinin daşnak hökumətini yaratmış və ərazi iddialarını gerçəkləşdirmək üçün səylərini artırmışlar. Bir sıra Azərbaycan torpaqlarını, xüsusilə Zəngəzuru işğal etdikdən sonra onlar daha da fəallaşmışlar. Ermənistan 29 noyabr 1920-ci ildə sovetləşdikdən sonra bolşeviklərin yardımı ilə ermənilər ərazi iddialarını daha da artırmışlar. Azərbaycan Xalq Cümhuriyyəti dövründə olduğu kimi, Naxçıvan, Şərur-Dərələyəz, Zəngəzur və Dağlıq Qarabağ heç bir əsas olmadan yenidən "mübahisəli ərazilər" elan olunmuşdur. Azərbaycanın bir sıra görkəmli şəxsiyyətləri, o cümlədən Nəriman Nərimanov bu siyasətin əleyhinə çıxsa da, hətta bununla əlaqədar Moskvaya teleqramlar göndərərək ciddi etirazını bildirsə də, bir nəticə əldə olunmamışdı. Əksinə, ərazi məsələlərinin birtərəfli, daşnak-bolşeviksayağı "həlli" nəticəsində "mübahisəli ərazilər" sonralar bədnam qonşuların ixtiyarına keçmişdir. 10 avqust 1920-ci ildə Rusiya ilə Ermənistan arasında imzalanan müvəqqəti sazişə əsasən, Şərur-Dərələyəz qəzası qeyd-şərtsiz Ermənistana verilmişdir. Zəngəzurun bir hissəsinin Ermənistana qatılması bolşeviklərin əli ilə rəsmiləşdirilmiş, 20 iyul 1921-ci ildə Ermənistan SSR-in tərkibində Zəngəzur qəzası yaradılmışdır.

Erməni daşnakları keçən yüzilliyin 20-ci illərinin sonlarında öz istəklərinin həyata keçirilməsi sahəsində daha bir addım atmışlar. Bu sahədə 12 mart 1922-ci ildə yaradılan Zaqafqaziya Sovet Sosialist Federativ Respublikaları Federativ İttifaqı (ZSSRFİ, 13 dekabr 1922-ci ildən Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası – ZSFSR) mühüm rol oynamışdır. Təsadüfi deyildir ki, XX yüzilliyin ilk rübündə Azərbaycan torpaqlarının itirilmə prosesini dörd mərhələyə bölən professor V.Piriyev IV mərhələni ZSFSR-in təşkili və onun SSRİ-nin tərkibinə daxil olmasına kimi – "müstəqil" Zaqafqaziya Sovet respublikalarının fəaliyyət göstərdiyi dövr hesab edir. Həmin vaxtlar Azərbaycanın da daxil olduğu Zaqafqaziya Sovet Federativ Sosialist Respublikaları Mərkəzi İcraiyyə Komitəsinin 18 fevral 1929-cu il tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikasının on kəndi – Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzasının Şahbuz nahiyəsinin Oğbin, Ağxəç, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qarçıvan kəndi, habelə Kilit kəndi torpaqlarının bir hissəsi, başqa sözlə desək, 657 kvadratkilometr Azərbaycan ərazisi Ermənistana verilmişdir. Bu zaman beynəlxalq hüquq normalarına məhəl qoyulmamış, Naxçıvanın ərazi bütövlüyünün qarantı olan 16 mart 1921-ci il tarixli Moskva və 13 oktyabr 1921-ci il tarixli Qars müqavilələrinin şərtləri kobud surətdə pozulmuşdur.

Naxçıvan bölgəsinin sərhədlərini və hansı dövlətə mənsub olduğunu dəqiq müəyyənləşdirən Qars müqaviləsinin birinci maddəsində ərazi məsələsindən bəhs edilərkən açıq-aşkar qeyd olunmuşdur ki, "Türkiyə Böyük Millət Məclisi Hökuməti və Ermənistan, Azərbaycan və Gürcüstan Sosialist respublikalarının hökumətləri razılığa gələn tərəflərin ərazisinin tərkibinə daxil olan ərazilərdə əvvəllər öz suveren hüquqlarını həyata keçirən dövlətlər arasında bağlanmış, yuxarıda göstərilən ərazilərə aidiyyəti olan, həmçinin üçüncü dövlətlərlə bağlanmış və Cənubi Qafqaz respublikalarına aidiyyəti olan müqavilələri ləğv olunmuş və öz qüvvəsini itirmiş hesab edirlər. Bu maddə 16 mart 1921-ci ildə Moskvada bağlanmış Türkiyə-Rusiya müqaviləsinə şamil edilmir". Həmçinin müqavilənin 5-ci maddəsi ilə Türkiyə hökuməti, Ermənistan və Azərbaycan Sovet hökumətləri Naxçıvan bölgəsinin Azərbaycanın himayəsində muxtar ərazi təşkil etməsinə razılıqlarını bildirməklə bərabər, bölgənin sərhədlərini də 3 saylı əlavə ilə təsdiq etmişlər: "Naxçıvan ərazisi. Urmiya kəndi, oradan düz xətlə Arazdəyən stansiyası (o, Ermənistan Sovet Sosialist Respublikasına qalır), sonra düz xətlə Qərbi Daşburun dağını (3142) – oradan Şərqi Daşburun dağını (4108) – Cəhənnəm dərəsi çayını keçərək Bulağın ("Rövnə") cənubuna çatır, Bağırsaq (Yağıqışık) dağının (6607), yaxud 6587-ci yüksəkliyin suayrıcı xətti ilə davam edərək keçmiş İrəvan qəzasının inzibati sərhədini, oradan Şərur-Dərələyəz sərhəd xəttini izləyir, 6629-cu yüksəklikdən Kömürlüdağa (6839, yaxud 6930) və oradan 3080-ci yüksəkliyə gəlir. Sayatdağ (7868) – Qurdqulaq (Kurt Kulaq) kəndi – Həməsür dağı (8160) – 8022-ci yüksəklik – Kükü dağı (10282) və keçmiş Naxçıvan qəzasının inzibati sərhədlərinin şərqi". Göründüyü kimi, 1929-cu ildə Ermənistana "hədiyyə edilən" kəndlərin birinin – Qurdqulağın (Kurt Kulaq) adı əlavədə xüsusi olaraq qeyd olunmuşdur.

1930-cu ildən sonra bütün müttəfiq respublikalarda olduğu kimi, Ermənistan SSR-də də yeni inzibati ərazi bölgüsü – rayonlar yaradılarkən həmin yaşayış məskənləri yerləşdiyi coğrafi mövqeyə görə yeni təşkil olunan rayonların tərkibinə verilmişdir.

Ancaq ermənilər bununla kifayətlənməmiş, bu kəndlərin adlarının dəyişdirilməsi sahəsində də işlər aparmışlar. Tarixi Qərbi Azərbaycan torpaqlarında, yəni indiki Ermənistan ərazisində ilk addəyişmə əməliyyatları İrəvan xanlığının 1828-ci ildə Rusiya ilə birləşdirilməsindən sonra çar hökuməti tərəfindən aparılmış, 1828-ci ildə İrəvanın adı Erivanla, 1837-ci ildə Kəvər Nor-Bayazidlə, 1840-cı ildə Gümrü Aleksandropolla əvəz olunmuşdur. Hətta yer adlarının dəyişdirilməsi məsələsi Sovet hakimiyyəti illərində dövlət siyasəti səviyyəsinə qaldırılmış, bu haqda Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin müvafiq qərarları verilmişdir. Addəyişmə əməliyyatı Ermənistan SSR Ali Sovetinin fərmanı ilə ilk dəfə 1935-ci ildə həyata keçirilmişdir. Həmin vaxt bir sıra digər yaşayış məskənləri ilə yanaşı, haqqında bəhs olunan kəndlərdən üçünün adı dəyişdirilmişdir. Belə ki, Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 3 yanvar 1935-ci il tarixli qərarı ilə Sultanbəy kəndinin adı Bartsruni, Qurdqulağın adı Boloraberd qoyulmuşdur. Bu iş sonralar da davam etdirilmiş, Ali Sovetin 12 noyabr 1946-cı il tarixli qərarı ilə Almalının adı Xndzorut, 3 iyul 1968-ci il tarixli qərarla Horadizin adı Oradis qoyulmuşdur.

Ümumiyyətlə, Ermənistan SSR Ali Sovetinin Rəyasət Heyəti 1935, 1938-1940, 1946-1950, 1957-1962, 1967-1969-cu illərdə dəfələrlə yer adlarının dəyişdirilməsi ilə əlaqədar qərarlar qəbul etmiş, 1935-ci ildən sonra Ermənistan ərazisində 521 türk mənşəli yaşayış məskəninin adı rəsmən dəyişdirilmişdir. Halbuki xatırlatmaq lazımdır ki, ilhaqdan az sonra çar I Nikolayın 21 mart 1828-ci il tarixli fərmanı ilə yaradılan və heç bir dövlətçilik ənənələrinə malik olmayan ermənilərin dövlət qurumunun təşkil olunması sahəsində ilk addım və təməl hesab edilən qondarma "Erməni vilayəti"nə daxil edilən 1111 yaşayış məskənindən cəmi 14 kəndin adı erməni mənşəli olmuşdur. Qeyd etmək yerinə düşər ki, indiyədək, bütövlükdə, keçmiş İrəvan, Naxçıvan və Qarabağ xanlıqları ərazisində mövcud olan və adları XIX-XX əsrlərdə müxtəlif ölkələrdə yayımlanmış xəritələrdə, tarixi-coğrafi ədəbiyyatlarda, rəsmi sənədlərdə saxlanmış 15 min Azərbaycan mənşəli coğrafi ad "toponim soyqırımına" məruz qalmışdır. Addəyişmə əməliyyatı apararkən ermənilər bir neçə üsuldan, o cümlədən, ilk növbədə, türklərin soykökü, onların tarixi keçmişi ilə bağlı yer adlarının dəyişdirilməsi (məsələn, Bayandur – Vağadur), ikincisi, yaşayış məskənlərinin adlarının erməniçəyə hərfi tərcümə edilməsi (məsələn, Daşqala – Karaberd), üçüncüsü, bəzi yaşayış məskənlərinin adlarının sovet həyat tərzinə uyğun, beynəlmiləlçilik pərdəsi altında (məsələn, Qaraqışlaq – Dostluq), dördüncüsü, yer adlarının cüzi dəyişikliklə, ona oxşar, lakin "erməniləşdirilmiş" adla əvəz edilməsi (məsələn, Dərəbbas – Darbas), beşincisi, "yuxarı", "aşağı", "böyük", "kiçik" sözləri ilə başlanan türk mənşəli yaşayış məskənlərinin adlarında bu sözlərin erməncə verilməsi kimi (Verin Zağalı, Nerkin Zeyvə) üsullardan istifadə etmişlər.

Həmçinin ermənilər haqqında bəhs olunan bu torpaqlara sahib olduqları zamandan – 18 fevral 1929-cu ildən etibarən bu kəndlərdə yaşayan müsəlman-türk əhaliyə qarşı deportasiya siyasəti həyata keçirmiş, nəticədə, bu kəndlərin əhalisinin çox hissəsinin tədricən öz dədə-baba torpaqlarını tərk edərək Azərbaycana və keçmiş ittifaqın digər yerlərinə köçmələrinə nail olmuşlar. Erməni təqiblərinə, hədə-qorxularına baxmayaraq, bu kəndləri tərk etməyərək orada qalan sonuncu azərbaycanlılar isə 1988-ci ildə Dağlıq Qarabağ problemi ilə başlayan hadisələr zamanı öz yurd-yuvalarını tərk etməyə məcbur olmuşlar.

Tarixi qaynaqlar təkzibolunmaz şəkildə təsdiq edirlər ki, bu kəndlərin ərazisi tarixən Azərbaycana məxsus olmuş, həmişə onun ayrılmaz tərkib hissəsi Naxçıvan inzibati ərazi vahidinin tərkibində qərar tutmuşlar. Məsələn, osmanlıların 1590-cı ildə tərtib etdikləri "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə bunun aydın mənzərəsini görürük. "Dəftər"dən məlum olur ki, Sultanbəy, Ağxaç, Oğbin, İtqıran və Almalı kəndləri 1590-cı ildə Naxçıvan qəzasının Məvaziyi-Xatun nahiyəsinə daxil olmuşdur. Yaxud da osmanlıların 1724-cü ildə Naxçıvanı tutduqdan sonra yaratdıqları yeni inzibati ərazi bölgüsünə əsasən, bu kəndlərin hamısı "Naxçıvan sancağı"na daxil olmuşdur. Osmanlıların Naxçıvan bölgəsində apardıqları siyahıyaalma zamanı 1727-ci ildə tərtib etdikləri "Müfəssəl dəftər"dən aydın olur ki, həmin vaxt İtqıran, Oğbin, Almalı, Ağxaç və Sultanbəy kəndləri Məvaziyi-Xatun, Qarçıvan Azadciran, Xaçik və Horadiz Dərələyəz nahiyəsinə daxil olmuşlar. Bu kəndlərin əhalisi buğda, arpa əkmiş, arıçılıqla, meyvəçiliklə məşğul olmuş, müvafiq vergilər (İtqıran 3600 ağça, Oğbin 3910 ağça, Almalı 3000 ağça və sair) ödəmişlər.

Nadir şahın 1747-ci ildə qətlə yetirilməsindən sonra yaranan Naxçıvan xanlığının (1747-1828-ci illər) tərkibində olan və haqqında bəhs edilən bu kəndlər Naxçıvanın Rusiyaya birləşdirilməsindən sonra da onun tərkib hissəsi olmuşdur. Rusiya ilə birləşdirildikdən sonra əraziyə gələn rus məmurlarının yazdığı əsərlər və XIX yüzilliyə aid digər rusdilli qaynaqlar təsdiq edirlər ki, bu kəndlər həmin vaxtlar da Naxçıvan bölgəsinin tərkibində idi. Həmin kəndlərdən İtqıran, Oğbin və Sultanbəy Naxçıvan əyalətinin Məvazixatun mahalına, Xaçik və Ağxaç Dərələyəz mahalına, Qarçıvan və Kilit Ordubad mahalına daxil edilmişdi. Həmin vaxt İtqıranda 157 nəfəri özündə birləşdirən 31 ailə, Oğbində 37 nəfər əhalidən ibarət 12 ailə yaşamışdır. Sultanbəy kəndinə isə həmin vaxt 66-sı kişi, 60-ı qadın olmaqla, 126 nəfər – cəmi 27 köçürmə erməni ailəsi yerləşdirilmişdi. İlhaq zamanı Ağxaç kəndində ancaq 23-ü kişi, 14-ü qadın olmaqla, 37 nəfər (6 ailə) müsəlman-türk yaşayırdı. Kilit kəndində isə 28 ailədə birləşən 104 (57 kişi, 47 qadın) müsəlman-türk əhali var idi.

XIX yüzillik boyu daim Naxçıvanla bir yerdə olan bu kəndlər Azərbaycan Xalq Cümhuriyyətinin və 1918-ci ilin noyabrından 1919-cu ilin aprelinədək mövcud olan Araz-Türk Respublikasının tərkibində olsalar da, Ermənistanı himayə edən dövlətlər tərəfindən heç bir əsas olmadan "mübahisəli ərazilər" adlandırılan torpaqlara aid edilmişlər. Məhz buna görə də həmin vaxtlar, xüsusilə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra tərtib olunan xəritələrdə 1918-1920-ci illərdə Şərur-Dərələyəz və Naxçıvan qəzasının tərkibində olan bu kəndlərin ərazisi mübahisəli ərazilər kimi verilmişdir. Məsələn, 1924-cü ildə II dərəcəli zemlemer N.Rıbakov tərəfindən tərtib olunmuş "Karta Naxkraya" xəritəsində haqqında bəhs olunan kəndlər Naxçıvanın sərhədləri daxilində verilsə də, "Ermənistan SSR-lə mübahisəli ərazilər" kimi əks olunmuşdur. Göründüyü kimi, bu xəritədə bolşevik hökumətinin ermənilərə münasibət sahəsində siyasəti özünü göstərmiş, tarixən Azərbaycana məxsus olmuş bu kəndlərin ərazisi mübahisəli ərazilər kimi verilmişdir. Bununla belə, N.Rıbakovun əsl reallığı görməsi və həmin kəndləri Naxçıvanın sərhədləri daxilində verməsi müsbət hal kimi qiymətləndirilmiədir.

***Ermənilər sonralar da Azərbaycan torpaqlarını əldə etmək üçün bir sıra addımlar atmış, hətta bir sıra ərazilərin Ermənistana verilməsi sahəsində ən yüksək səviyyədə qərarlar qəbul edilmişdi. Ancaq xalqımızın ümummilli lideri Heydər Əliyevin 14 iyul 1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə həmin ərazilərin Ermənistana verilməsinin qarşısı alınmışdır.***

**Fəxrəddin SƏFƏRLİ**

*AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü*

---

"Naxçıvan tarixi"ndən

## Naxçıvan qədim dövrdə

***(Əvvəli qəzetimizin 30 yanvar tarixli sayında)***

Orta Tunc dövrünə aid arxeoloji abidələrin tədqiqi bu dövrdə Naxçıvanın Urmiya hövzəsi daxil olmaqla Azərbaycanın cənubu və Şərqi Anadolu ilə vahid iqtisadi-mədəni rayona daxil olduğunu göstərir. Bu dövrdə Naxçıvan, boyalı qabları ilə fərqlənən Orta Tunc dövrü mədəniyyətinin mərkəzinə çevrilir. İqtisadiyyatın, xüsusilə sənətkarlıq və ticarətin inkişafı şəhərtipli yaşayış yerlərinin və şəhər dövlətlərin formalaşması ilə nəticələnir. Naxçıvan ərazisindəki arxeoloji abidələr Yaxın Şərqdə formalaşan Orta Tunc dövrü mədəniyyətinin bir sıra xarakterik cəhətlərini müəyyən etməyə imkan verir. Orta Tunc dövründə Yaxın Şərqdən fərqli olaraq, Naxçıvanda oturaq həyat fasiləyə uğramada davam edir və qalatipli yaşayış yerləri meydana çıxır. Bunlar arasında II Bəzəkli qalası, Göynük qalası, Qazançıqala, Qız qalası, Qurddağ qalası strateji cəhətdən əlverişli mövqedə yerləşmiş yaşayış yerləridir. Bu tip abidələr cəmiyyətin iqtisadiyyatında və ictimai quruluşunda meydana gələn dəyişiklikləri izləməyə imkan verir.

Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrlərinə aid arxeoloji abidələri bu dövrdə Azərbaycanın cənub rayonlarında baş verən sosial-mədəni prosesləri, habelə şimal və cənub rayonları arasındakı iqtisadi-mədəni əlaqələri öyrənmək baxımından əhəmiyyətlidir. Araşdırmalar Son Tunc dövründə Naxçıvanda boyalı qablarla xarakterizə edilən mədəniyyətin davam etdiyini, eyni zamanda Azərbaycanın şimal rayonlarında yayılan Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan xüsusiyyətlərin bu əraziyə daxil olduğunu göstərir. Naxçıvan və Xudafərin ətrafında aparılan araşdırmalar Xocalı-Gədəbəy mədəniyyətinin Azərbaycanın cənubuna doğru yayıldığını göstərir. Bu, e.ə. II minilliyin sonu və I minilliyin əvvəlində Azərbaycanın cənub rayonlarında baş verən siyasi dəyişikliklər, o cümlədən yerli tayfaların xarici işğal təhlükəsinə qarşı birləşməsi prosesi ilə bağlı olmuşdur. Bu dövrdə Naxçıvan ərazisində I Kültəpə, II Kültəpə, Şahtaxtı, Sədərək, Xələc, Şortəpə kimi iri yaşayış yerləri mövcud olmuşdur. Orta Tunc dövründə olduğu kimi, bu dövrdə də qalatipli yaşayış yerləri mövcud olmuşdur. Əhali müdafiə olunmaq üçün Orta Tunc dövrünün qalaları ilə yanaşı, yeni qalalar da inşa etmişdir. Sədərəkqala, Oğlanqala, Çalxanqala bu tip abidələr sırasına daxildir.

Dəmir dövrünün inkişaf etmiş mərhələsinə aid abidələr bu dövrün siyasi və iqtisadi mənzərəsini aydınlaşdırmaq üçün ən dəyərli mənbələrdir. Bu dövrə aid tədqiq edilmiş abidələr, başlıca olaraq, Şərur və Ordubad rayonları ərazisindədir. Xaraba Gilanda yerləşən Xalı-Keşan, Mərdangöl, Muncuqlutəpə nekropollarının materialları bu dövrün xarakteristikasını vermək üçün dəyərli mənbədir. Bu dövrün tarixini öyrənmək üçün ən dəyərli abidə Oğlanqala yaşayış yeridir. 2008-2011-ci illərdə Azərbaycan-Amerika ekspedisiyasının apardığı araşdırmalar zamanı Naxçıvan tarixinin öyrənilməsi üçün maraqlı faktlar aşkar olunmuşdur. Müəyyən olunmuşdur ki, Oğlanqala e.ə. IX-VI əsrlərdə Şərur düzündə meydana gələn kiçik bir şəhər dövlətin paytaxtı olmuş və Urartu işğalçılarına qarşı mübarizə aparmışdır.

***Mənbə: "Naxçıvan tarixi" çoxcildliyinin I cildi***

*Müasir günümüzdə insanlar irqindən, harda və hansı ictimai quruluşda yaşamasından asılı olmayaraq, mənəvi dəyərlərə ehtiyac hiss edir və bu dəyərlərə həssaslıqla yanaşırlar. Elə bunun nəticəsidir ki, bu gün dünya xalqları arasında sevə-sevə oxunan kitablardan biri öz kamil şəxsiyyəti ilə heyrətlər yaratmış Türk dünyasının böyük şairi Mövlana Cəlaləddin Ruminin "Məsnəvi" kitabıdır.*

*Yeni nəşrlər*

## Azərbaycan dilinə tərcümə edilmiş "Məsnəvi" kitabı Türkiyədə çap olunub




"Məsnəvi" əsl mənəviyyat, ucalıq və zəngin insani dəyərlər kitabıdır. Bütün türk-islam əxlaqı və düşüncəsini özündə əks etdirən bu kitab bəşəriyyətə humanizm, sevgi, barış, qayğıkeşlik və mərhəmət, düzgünlük, həqiqətsevərlik kimi yüksək əxlaqi, mənəvi hiss və duyğular, keyfiyyət və xasiyyətlər aşılayır. Daşıdığı bu mənəvi-fəlsəfi əhəmiyyətdən irəli gəlir ki, neçə illərdir, böyük türk şairi və filosofu Mövlananın "Məsnəvi"si dildən-dilə tərcümə edilir. Mövlana Cəlaləddin Ruminin "Məsnəvi"si ölkəmizdə Azərbaycan dilində üç cilddə çap edilib oxucuların ixtiyarına verilib. Milli mənəviyyat və dəyərləri göz bəbəyi kimi qorunan zəngin dəyərlər yurdu Naxçıvanda Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla çap olunmuş "Məsnəvi" üçcildliyi türkiyəli alim, professor Adnan Qaraismayıloğlunun orijinaldan tərcüməsi əsasında AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Əbülfəz Quliyev tərəfindən Azərbaycan dilinə çevrilərək nəşr edilib. Kitab Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun şəxsi təşəbbüsü, məsləhəti və qayğısı ilə işıq üzü görüb. Kitabın redaktoru akademik İsa Həbibbəylidir. Mövlana Ruminin "Məsnəvi"sinin azərbaycanca variantının ulu Mövlananın vətəni qardaş Türkiyə Cümhuriyyətində nəşr edilməsi maraq doğurmaya bilməz. "Məsnəvi"nin bir çox dünya dillərinə tərcümə olunaraq çap edilməsi və yayılmasını istəyən türkiyəli qardaşlarımızın azərbaycancaya tərcüməni də qiymətləndirərək yenidən çap etdirmələri azərbaycandilli oxucular üçün dəyərli töhfədir. Kitab növbəti dəfə Türkiyə Cümhuriyyətində 6 cilddən ibarət olmaqla nəfis bir şəkildə çap edilib. Mövlananın həyatı və irsi haqqında dolğun məlumat da daxil edilən bu əsər bütün bölmələrilə insanlığa əxlaq və mənəviyyat təlimi keçir.

Böyük Mövlana deyirdi: "Hikmətlər Allahın əsgərləridir. Allah onlarla müridlərinin ruhlarını gücləndirər. Biliklərini cəhalət şübhəsindən, ədalətlərini zülm şübhəsindən, comərdliklərini riya şübhəsindən və səbirlərini axmaqlıq şübhəsindən uzaq tutar. Axirəti anlamaqda onlara uzaq olanı yaxınlaşdırar... Hər oxucu ancaq ağlı ölçüsüncə anlayar. İbadət edən zəhmətinin gücü qədər ibadət edər. Müfti dünyagörüşü ölçüsüncə fitva verər. Sədəqə verən qüdrəti ölçüsüncə sədəqə verər. Bəxşiş verən varlığı ölçüsüncə bəxşiş verər". Bu mənada bəhs olunan zəngin mənəviyyat kitabı kimi "Məsnəvi" hikmət və müdrikliyin "əsgəri" olmaqla həmişə insanları, onu oxuyanları mənəviyyata, həqiqətə dəvət edir. Mənəviyyatı yüksək tutanlar, həqiqəti sevənlər üçün əvəzsiz olan bu mənəviyyat mənbəyi həm də dəyəri biçilməyəcək böyük bir bəxşiş, qiymətli bir hədiyyədir. Amma, əlbəttə ki, hər oxucu öz istəyincə axtarar, öz qədərincə anlayar, öz mənəviyyatınca dəyər verər. Mövlanaya və onun "Məsnəvi"sinə maraq duymayan adam yoxdur. Mövlana yaradıcılığındakı hikmət, müdriklik və əxlaq təntənəsi bizim hər birimizin əxz etməli olduğumuz, ata-babalarımızın təqdir etdiyi mənəvi ucalıq mərtəbəsidir. "Hər kim olursan ol, gəl" deyən, yolları açan Mövlananın sözlərilə desək, bu kitab da elə hər kim olursa olsun, mənəvi qida almaq istəyənlər üçündür.

**Ramiz QASIMOV**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

## İşıq gələn tərəfə gedək

***Həmkarlarımdan birinin qəzetimizdə unudulmaqda olan uşaq oyunları ilə bağlı yazısını oxuyarkən xəyalım məni də uşaqlıq illərinə apardı. Oynadığımız oyunları gözlərim önünə gətirdim. Elə sonrakı illərdə də, lap yaxın dövrlərə qədər də həyət-bacada, özlərinə meydança düzəltdikləri yerlərdə uşaqların oynadıqları oyunlar onlara dünyanın ən böyük sevincini bəxş edən məşğuliyyət idi. Həmkarımın yazısı məni düşündürən bəzi məqamlara toxunmağa vadar etdi. Bu məqamları oxucularla bölüşmək istədim.***

Unudulan təkcə uşaq oyunlarıdırmı? Tam əminliklə deyim ki, bu gün hansı oxucumuza belə bir sualla – Son vaxtlar qohum-əqrəbanızda, yaxın tanışlarınızda hansı nənəninsə öz nəvələrinə nağıl danışmasını xatırlayırsanmı? – müraciət etsək, müsbət cavab almayacağıq. Şəxsən mən özüm nənələrin uşaqlara nağıl danışması kimi çox maraqlı, tərbiyəvi əhəmiyyət daşıyan prosesin mövcudluğunu yadımdan çıxarmışam. Bəli, unudulan dəyərlər içərisində nağıllarımız da var. Və etiraf edək ki, bu qiymətli ədəbi nümunələri, şifahi xalq ədəbiyyatının ən geniş yayılmış janrlarından biri olan nağılları ilk olaraq nənələrimizdən eşitmişik. Özümüzü o nağılların içində görmüşük. Mənfi surətlərə nifrət etmişik, müsbət surətlərə oxşamağa çalışmışıq. Bəzən nənələrimizin: – Daha gecdir, gedin yatın, qalanını sabah danışaram – deməsindən sonra onlardan əl çəkməmişik ki, nağılı başa çatdırsınlar. Burada yadıma gözəl şairimiz Əhməd Cəmilin kövrək misraları düşür:

*– Ay nənə, bir nağıl da de!*
*– Ömrüm-günüm, yat daha,*
*Hamısını indi desəm, nağıl qalmaz sabaha.*
*– Can nənə, de birini də.*
*– Ağrın alım, sözə bax.*
*Evimizdə səndən savay, gör heç varmı bir oyaq?*

Nağıl hər bir xalqın təfəkkürünün məhsulu olmaqla uşaqlarda ilkin müsbət keyfiyyətlər formalaşdırır. Cəsurluq, qorxmazlıq, vətənpərvərlik, böyüklərə hörmət, kiçiklərə qayğı və sair. Həmçinin uşaqlarda nitq qabiliyyətinin inkişaf etdirilməsində, onlarda söz ehtiyatının zənginləşdirilməsində və digər bu kimi keyfiyyətlərin onlara aşılanmasında nağıllar ən səmərəli vasitələrdən biridir.

Elə ulularımız da məhz bunları nəzərə alaraq uşaqlara nağıl danışmağı vacib sayıblar. Bəs bu gün bu, niyə unudulub? Yəqin, deyəcəksiniz ki, indi nağıl yox, kompüter əsridir. Bu fikirlə razılaşmaq olar ki, indi kompüter əsridir. Ancaq onu da unutmayaq ki, televizor, internet, kompüter və həyatımızın tərkib hissəsinə çevrilən digər texnologiyalar barədə ilk ibtidai məlumatlar başqa məfhumların timsalında elə nağıllarımızda verilməyibmi? Ata-babalarımız öz ilkin təfəkkür tərzləri ilə həmin texnologiyaları ibtidai şəkildə olsa da, nağıllarımıza gətirməyiblərmi?

Yaxşı ki, nağıllar orta məktəbdə ibtidai siniflərin proqramına salınıb. Sinifdənxaric oxu materiallarında da nağıllara yer verilib. Bu vasitələrdən səmərəli istifadə etmək müəllimlərin vəzifəsidir və düşünürük ki, onlar bu vəzifəni yerinə yetirməyə səy göstərsələr də, azdır.

Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Əmanət Musayeva deyir ki, dərs dediyim V sinif şagirdləri ilə belə bir söhbət apardım:

– İlk dəfə hansı nağılı eşitmisiniz?

Əvvəlcə heç bir şagird dillənmədi. Bir qədər istiqamət verdikdən sonra şagirdlərdən biri cavab verdi:

– Televiziyada "Göyçək Fatma" nağılına baxmışam.

Bu cavab başqa şagirdləri də sanki ruhlandırdı. Onlar televizorda, internetdə baxdıqları müxtəlif filmlərdən (baxmayaraq ki, onların böyük əksəriyyəti nağıl janrından xeyli uzaq olan ekran materialları idi) danışmağa başladılar. Belə bir haqlı qənaətlə, yəqin ki, çoxumuz razılaşmayacağıq: bəhs olunan mövzu ilə bağlı bu gün nənələri televizor və internet əvəz edib.

Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının bədii rəhbər-direktoru, Azərbaycan Respublikasının Xalq artisti Yasəmən Ramazanova:

– Nağıllar əsasında səhnələşdirilmiş tamaşalara daha çox yer verməyə çalışırıq. Belə tamaşalarda uğurlarımız daha çox olur. Onları uşaqlara təqdim edəndə yaşadıqları sevinci özüm də yaşayıram. Və düşünürəm ki, nə üçün uşaqların tərbiyəsində mühüm rolu olan nağılların öyrədilməsinə və öyrənilməsinə biganə yanaşılır. Bir dəfə tamaşadan sonra uşaqlarla həmsöhbət oldum. Nağıl-tamaşadan xoşları gəlib-gəlmədiyini soruşdum. Cavabları çox müsbət oldu. Soruşdum ki, evinizdə sizə nağıl danışırlarmı? "Yox" cavabı aldım: – Ata-anamız seriallara baxır, bizi isə dərslərimizi oxuyub yatmağa göndərirlər.

Acı da olsa, həqiqətdir. Kimlər üçünsə toxunduğumuz mövzu köhnəlmiş, ya da lazımsız hesab edilə bilər. Bu, onların öz işidir. Ancaq dərindən düşünsək, nağıl aləminin gerçəkliklərini uşaqlarımıza çatdırmağın böyük tərbiyəvi əhəmiyyəti olduğunu anlayarıq.

"Cırtdanın nağılı"nı xatırlayırsınızmı? Nağılda belə bir məqam var. Uşaqlar meşədə azıblar. Yol axtarırlar. Qarşıda iki yol var: bir tərəfdə işıq görünür, bir tərəfdən səs gəlir. Cırtdandan soruşurlar: – Hansı tərəfə gedək: işıq görünən tərəfə, yoxsa səs gələn tərəfə? – Cırtdan cavab verir: – İşıq gələn tərəfə.

... Nağıllarımızda işıq var, keçilən yolun sonu həmişə xeyirlə qurtarır. Xeyir həmişə şər üzərində qələbə çalır. Bu qələbə həmin işıqdan gəlir. İşıq gələn tərəfə gedək.

**✍ Muxtar MƏMMƏDOV**

## Səhiyyə müəssisələrində immunlaşdırma aylığı davam edir

***Muxtar respublikanın səhiyyə müəssisələrində çalışan və risk qrupuna daxil olan ginekologiya, stomatologiya, cərrahiyyə, hemodializ, laboratoriya şöbələri işçilərinin, eləcə də obliqat qruplarının hepatit B infeksiyasına qarşı immunlaşdırma aylığı davam edir.***

Fevralın 6-da start verilən bu tədbir artıq Naxçıvan Muxtar Respublika Xəstəxanası, Doğum, Diaqnostika-Müalicə, Stomatoloji, Onkoloji mərkəzlərin, Ağciyər, Psixi Xəstəliklər dispanserlərinin həkim və orta tibb işçilərini əhatə edib. Bu səhiyyə müəssisələrində 502 nəfər vaksinasiyaya cəlb olunub. Profilaktik tədbir Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının 4 nəfərdən ibarət vaksinator briqadası tərəfindən həyata keçirilib.

Tədbirin təşkili üçün məsul şəxslər tərəfindən vaksinasiyaya cəlb ediləcək tibb işçilərinin siyahıları tərtib olunub və vaksin vurulmazdan bir həftə əvvəl onlardan qan götürülərək müayinə üçün Naxçıvan Muxtar Respublikası QİÇS-lə Mübarizə və Profilaktika Mərkəzinin laboratoriyasına göndərilib. Göndərilən qan nümunələrinin seroloji diaqnostikası, müayinənin nəticələri təsdiq edildikdən sonra alınan məlumat əsasında vaksinasiya aparılıb.

Hepatit B infeksiyasına qarşı artıq dörd ildir ki, həyata keçirilən immunlaşdırma tədbirlərinin səmərəli təşkili üçün muxtar respublikamızda geniş hazırlıq işləri aparılıb. Rayon mərkəzi xəstəxanalarında hepatit B vaksininin vurulması üçün vaksinator da daxil olmaqla üç, Naxçıvan şəhərində yerləşən bütün tibb müəssisələrində isə dörd orta tibb işçisindən ibarət briqadalar yaradılıb və tibb işçiləri lazımi səviyyədə təlimatlandırılıblar. İmmunlaşma tibb işçiləri arasında üç mərhələdə aparılacaqdır. Profilaktik tədbir ilk iki mərhələdən iki ay sonra üçüncü vaksinlə tamamlanacaqdır. Qrafik əsasında üç vaksin alan hər bir tibb işçisi hepatit B virusuna yoluxma riskindən tamamilə müdafiə olunacaqdır.

Rayon mərkəzi xəstəxanalarında da tibb işçilərindən götürülən qan nümunələri müayinə üçün Naxçıvan Muxtar Respublikası QİÇS-lə Mübarizə və Profilaktika Mərkəzinin laboratoriyasına göndərilib. Nəticələr bəlli olandan sonra vaksinasiyanın ilk mərhələsi fevralın sonunadək başa çatdırılacaqdır. Şahbuz Rayon Mərkəzi Xəstəxanasında isə vaksinasiyanın ilk mərhələsi artıq başa çatıb.

Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi bu tədbirin lazımi səviyyədə həyata keçirilməsi məqsədilə hepatit B vaksininin bölgüsünə və təlimat əsasında ərazilərə çatdırılmasına ciddi nəzarət edir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının *üzvlüyünə (vəkilliyə) qəbulla əlaqədar müsabiqə elanı*

Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən kollegiya üzvlüyünə (vəkilliyə), həmçinin muxtar respublikanın rayonlarında yaradılacaq vəkillik qurumlarında vəkilliyə qəbulla əlaqədar 1 noyabr 2014-cü il tarixdən müsabiqə elan olunmuşdur.

Müsabiqədə (ixtisas imtahanlarında) ali hüquq təhsilli, Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Vəkilliyə namizədin hazırlığının, bilik səviyyəsinin, ümumi dünyagörüşünün, vəkil vəzifəsinə yararlı və layiqliliyinin müəyyən edilməsi məqsədilə aşkarlıq şəraitində şəffaf üsullarla Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyası ilə birlikdə test və şifahi müsahibə imtahanlarından ibarət ixtisas imtahanları keçiriləcək, ixtisas imtahanlarını müvəffəqiyyətlə vermiş namizədlər Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında icbari təlimdə (30 gün) iştirak edəcəklər.

Müsabiqədə iştirak etmək istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Rəyasət Heyəti tərəfindən müəyyən olunmuş formada ərizə*
*2. Kadrlar uçotunun şəxsi vərəqəsi*
*3. Tərcümeyi-hal*
*4. Ali təhsil haqqında diplomun surəti (diplomun əsli sənədlərlə birlikdə təqdim edilməlidir)*
*5. Əmək kitabçasının təsdiq edilmiş surəti*
*6. Şəxsiyyəti təsdiq edən sənədin surəti*
*7. Yaşadığı ünvan və ailə tərkibi haqqında arayış*
*8. Sağlamlıq haqqında arayış*
*9. 3x4 sm ölçüdə 4 ədəd fotoşəkil*
*10. Hərbi biletin surəti.*

Sənədlərin qəbulu hər iş günü saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan şəhəri, C.Məmmədquluzadə küçəsi 5 ünvanında – Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti aparatının qəbul otağında aparılır.

***Əlaqə vasitələri:***
***telefon: (036) 545-58-06; 550-64-89***
***e-poçt: vekillerkollegiyasi@nakhchivan.az***

## Elan

Kartof əkinini həyata keçirən kənd təsərrüfatı məhsulları istehsalçılarının nəzərinə çatdırılır ki, "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" MMC tərəfindən 3 növdə yüksəkkeyfiyyətli toxumluq kartof məhsulunun satışı həyata keçirilir.

*I növ toxumluq kartofun satış qiyməti – 60 qəpik*
*II növ toxumluq kartofun satış qiyməti – 50 qəpik*
*III növ toxumluq kartofun satış qiyməti – 40 qəpik təşkil edir.*

Kartof əkinini həyata keçirəcək kənd təsərrüfatı məhsulları istehsalçıları toxumluq kartof almaq üçün aşağıdakı əlaqə telefonlarına müraciət edə bilərlər:

"Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" MMC.

***Naxçıvan şəhəri, Ə.Qəmküsar küçəsi***
***Əlaqə telefonu: (036) 545-75-77; (060) 540-94-64; (050) 516-45-61***

## İtmişdir

Naxçıvan şəhəri, B.Abbasov küçəsi, ev 56-da yaşamış Məmmədov Salman Məmmədəli oğlunun adına olan 2231 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, "19-cu" məhəllə, bina 5, ev 29-da yaşayan Səfərova Bahar Abbas qızının adına olan 7511 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, "6-cı" məhəllə, 4/2 ünvanında yaşayan Ramazanov Yalçın Aftandil oğluna məxsus olan torpağın 0024128 nömrəli çıxarışı və AA-005857 inventar nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 155